**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2014-cü il tarixli 56 və 58 saylı, 28 dekabr 2014-cü il tarixli 79 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 83 saylı Ağcabədi-Füzuli seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Nərimanov Nəriman Yusif oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək səsvermə günü səslərin hesablanması aparıldıqdan sonra səsvermənin nəticələri haqqında yekun protokolunun məntəqə seçki komissiyasında deyil, dairə seçki komissiyasında tərtib edildiyini iddia edərək müvafiq tədbir görülməsini xahiş etmişdir.

Həmin bələdiyyə üzrə qeydə alınmış namizədlər Hüseynov Müşviq Firuddin oğlu, Qasımov Rəşad Həbib oğlu, Hüseynova Şəfiqə Fərhad qızı da eyni məzmunlu müraciətlərlə Mərkəzi Seçki Komissiyasına müraciət etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddəsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatının tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və bir icraatda birləşdirilərək digər müraciətlərlə birlikdə araşdırılmışdır. Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvləri tərəfindən həmin müraciətlərə dair müvafiq birgə rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma zamanı 83 saylı Ağcabədi-Füzuli seçki dairəsi dairə seçki komissiyasının və həmin dairənin 26 saylı məntəqə seçki komissiyası üzvlərinin, Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlərin, həmin seçki məntəqəsində müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən səsvermə günü səslərin hesablanması aparıldıqdan sonra səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokolunun məntəqə seçki komissiyasında deyil, dairə seçki komissiyasında tərtib edilməsi iddiası öz təsdiqini tapmamışdır.

Belə ki, 26 saylı məntəqə seçki komissiyasının katibi Z.X. Sadıqova izahatında bildirmişdir ki, səslərin hesablanması başa çatdıqdan sonra səsvermənin nəticələri haqqında yekun protokol onun tərəfindən tərtib olunmuş, komissiya üzvləri tərəfindən imza edilmiş, protokolun bir nüsxəsi məlumat lövhəsindən asılmış, surətləri müşahidəçilərə və qeydə alınmış namizədlərə təqdim olunmuşdur.

Bundan başqa Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlər A.M.Süleymanov, M.H.Ədilov, 26 saylı seçki məntəqəsində müşahidəçi olmuş F.Ə.Dadaşov, G.Ə.Hüseynov öz izahatlarında bildirmişlər ki, səsvermə prosesində heç bir qanun pozuntusu olmamış, səslərin hesablanması və səsvermənin nəticələri haqqında yekun protokol seçki məntəqəsində qanunda nəzərdə tutulmuş qaydada tərtib edilərək dairə seçki komissiyasına aparılmışdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətlərdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. 83 saylı Ağcabədi-Füzuli seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Nərimanov Nəriman Yusif oğlunun 26 dekabr 2014-cü il tarixli 56 saylı, Hüseynov Müşviq Firuddin oğlu və Qasımov Rəşad Həbib oğlunun 26 dekabr 2014-cü il tarixli 58 saylı, Hüseynova Şəfiqə Fərhad qızının 28 dekabr 2014-cü il tarixli 79 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |